


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 219 (23.631)

*16 dekabr 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Zamanı uzun bir yola, tarixi isə zamanın ağır-ağır addımlayan yolçusuna bənzədirlər. Tarix ona görə ağır-ağır addımlayır ki, o hər yeni addımında geriyə nəzər salır. Bu nəzər gedilən yolun nəticəsi – salnaməsidir. Naxçıvanlılar da 25 il əvvəl zamanın yolayrıcından bir yolçuluğa çıxmışdılar. Bu yol qaranlığın çökdüyü zülmət içərisində bir yol idi. Həmin yoldan Naxçıvanı işıqlı yola çıxaran isə ulu öndərin siyasi xəttini davam etdirən cənab Vasif Talıbov oldu. İndi söz ötən həmin 25 ilindir. Çünki o, artıq bir salnamə, tarixdir. Tarixin söylədiyi söz isə deyilən bütün sözlərdən kəsərlidir.*

# Ulu öndər Heydər Əliyevin istək və arzuları ilə işıqlanan




Yolun başlanğıcındakı Naxçıvanın ümumi mənzərəsi belə idi: 1995-ci ildə Naxçıvan Muxtar Respublikası blokadanın ən çətin anlarını yaşayırdı. Ağır sosial-iqtisadi vəziyyət muxtar respublikanın ümumi mənzərəsinə duman kimi çökmüşdü. Havadan kasıblıq, yoxsulluq qoxusu gəlirdi. Dəmir yolunun fəaliyyətinin hələ düz 5 il bundan əvvəl dayanması ilə Naxçıvan iflic vəziyyətə düşmüşdü. Yanacaq qıtlığı, elektrik enerjisi və təbii qazın yoxluğu burada həyatı dayandırmışdı. İnsanlar olmazın əzab-əziyyəti ilə üz-üzə qalmışdılar: informasiya blokadası, evlər, iş yerləri soyuq, qaranlıq, süfrələr bomboş, iş yerləri bağlı, çörək, ərzaq, neft növbələri, əllərdə talonlar mağazaların qarşısında ailə başına yarım kiloqram şəkər tozu, 2 kiloqram un almaq üçün saatlarla sırada dayanmaq... Elə bir ev yox idi ki, oradan bir və ya iki nəfər işləmək üçün qonşu ölkələrə getməmiş olsun. İnsanlar ağır sosial vəziyyətdə yaşayırdılar. Naxçıvandakı vəziyyət burada heç bir evdən,



ailədən kənarda qalmırdı. Çünki bu, ümumi bir problem idi. Kiminsə kimdən azacıq da olsa, üstünlüyü yox idi, insanlar ortaq bir həyatı bölüşürdülər.

Hələ naxçıvanlılar bu yolçuluğa çıxmamışdan əvvəl tarix də, zaman da göstərdi və sübut etdi ki, Yaradanın bu xalqın xilaskarı olaraq yer üzərinə göndərdiyi, həyatını Azərbaycana və Azərbaycançılığa həsr edən, xalqımızın qeyrətli övladı, müstəqilliyimizi əbədi edən ümummilli liderimiz Heydər Əliyev olmasaydı, Naxçıvan Muxtar Respublikası da 1990-cı illərdə işğal olunan əzəli torpaqlarımızın taleyini yaşayacaqdı. Ulu öndərimiz bunun qarşısını aldı. Lakin həmin dövrdə bütün ölkəmiz Naxçıvan kimi təhlükəli vəziyyətə düşdüyündən xalqın təkidi ilə böyük şəxsiyyət xilaskarlıq missiyası ilə Azərbaycana ikinci dəfə rəhbərliyə qayıtmalı oldu. Ulu öndər Naxçıvandan ***Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında istəklərinin, planlarının yerinə yetirilməsi arzusu ilə*** ayrıldı.

Böyük Heydər Əliyev o zaman bəzi "vətənsevərlərin" ölkədə nə kimi təxribatlar törətdiklərini, torpaqlarımızı bir-birinin ardınca güdaza verdiklərini, ölkədə dəfələrlə qarşıdurma yaratdıqlarını, bununla kifayətlənməyib Naxçıvana da əl uzatdıqlarını çox gözəl təhlil edir, nəticələrə gəlirdi.

Həmin illər Azərbaycandakı vəziyyətə tab gətirməyib xarici ölkələrdə yaşamağı seçənlər çox oldu. Özlərini ziyalı, lider kimi qələmə verib sovet Moskvası ilə əlbirlik edib torpaqlarımızın işğal olunmasına rəvac verənləri gördük. Naxçıvanın blokadası üçün xüsusi planlar hazırlayanları, vəzifə meylində olanları,



yaranmış vəziyyətdən istifadə edənləri gördük. Azərbaycan da, onun ayrılmaz parçası olan Naxçıvan da bir ana bənd idi ki, məhv edilsin, tarixdən, xəritədən silinsin. Lakin Heydər Əliyev siyasəti, uzaqgörənliyi bunun qarşısını aldı. Naxçıvan əmin əllərə verildi. Naxçıvanlıların taleyi isə məhz ulu öndərin etibar etdiyi Vətən oğluna tapşırıldı. O Vətən oğlu ki illər sonra da ***"Mənim işim Heydər Əliyevin Naxçıvanda görmək istədiyi, ancaq zaman kəsiyinin yarımçıqlığı ucbatından gerçəkləşdirə bilmədiyi işləri tamamlamaqdan ibarət olmuşdur və bundan sonra da belə olacaq"***, – deyəcək və böyük iradə, qətiyyət və bacarıqla ulu öndərin Naxçıvanla bağlı arzu və istəklərini, planlarını reallığa çevirəcəkdi.

Ötən illərin göstəriciləri, statistikası, Naxçıvanın haradan haraya gəldiyini təsdiqləyən sənədlər var. Bu gün Naxçıvanın bütün bölgələri ötən 25 ildən söhbət açır. Naxçıvanın dünəni ilə bu gününün mənzərəsi fonunda insanlar nələrin sahibi olduqlarını yaxşı bilirlər. Şəhər, qəsəbə, kəndlərimizin yenidən qurulub-yaradılan abad yollarının, məktəblərinin, səhiyyə, mədəniyyət ocaqlarının hər biri dünənin müqayisəsində bu gün insanların nail olduqlarıdır. Bu gün Naxçıvan işsizlik ucbatından başqa yerlərə gedənləri qaytararaq torpaq mülkiyyətçisinə, fermerə, sahibkara, ailə təsərrüfatçısına çevirən, insanların qürur duyduqları yurd yerləridir. Naxçıvan 30 il blokada şəraitində olsa da, ötən illərdə insanlara yaradılan şərait, məşğuliyyət, dolanışıq, yaşayış bu sözü unutdurub onlara. İndi bu yerin insanları inkişafdan, tərəqqidən danışırlar. Nəinki naxçıvanlılar, buraya yolu düşən hər bir qonaq, turist ölkəsində, yaşadığı yerlərdə Naxçıvandan heyranlıqla danışırlar. Blokada və inkişafın paralel kontekstində isə ötən 25 ilin Naxçıvanının sosial-iqtisadi mənzərəsini qısa olaraq belə xarakterizə etmək olar: çıraq işığından elektrik enerjisi ixracatçısına, çörək növbələrindən ərzaq təhlükəsizliyinə, kötüklər sıralanan meşələrdən min hektarlarla yaşıllıqlara, yararsız torpaqlardan yüzlərlə hektar əkinəyararlı torpaqlara sahib diyara, itibbatmaqda olan abidələrdən, kəhriz, dəyirmanlardan yeni həyat verilmiş tarixi yurda, 70 ilin köhnəlikləri silən yeniliklərə...

Bunlar rəhbər-sakin birliyinin, sədaqətinin göz önündə olan bəhrələridir. Lakin ötən 25 ilə bir də duyğuların "gözü ilə" nəzər salmaq da yerinə düşərdi:

- Naxçıvana Naxçıvan boyda sevgi. Bu sevgi ilə o qaranlıq yollara işıq tutuldu. O yollar keçildi.

-Yurda, torpağa məhəbbət. Bu məhəbbətlə yurd qorundu, torpağa uzanan əllər kəsildi.

- Şəhidə, qaziyə övlad qayğısı. Biz bunu illər uzunu onlara göstərilən hərtərəfli qayğıda görmüşdük. Bir də 44 günlük Vətən müharibəsində bu günədək 17 dəfə şəhidini qarşılayan Naxçıvanda bir daha gördük. Muxtar respublika rəhbərini naxçıvanlı şəhidlərimizi böyük kədərlə qarşılamasında, onların valideynlərinə, övladlarına isti münasibətində, qazilərimizi ziyarətində, onların müalicəsi üçün bütün imkanlardan istifadə ilə bağlı verdiyi tapşırıqlarda gördük.

- Əminlik. Buna alınmaz qala olan Naxçıvanda müdafiə mövqeyinin gücləndirilməsi, ordu quruculuğu sayəsində nail olmuşuq. Bu, 1990-cı illərdən fərqli olaraq naxçıvanlılara bir əminlik verir. Lap ucqar kəndlərimizdə belə, insanlar əmindirlər və rahatdırlar ki, onların təhlükəsizliyi muxtar respublikada ən önəmli məsələdir.

- Əməyə, zəhmətə dəyər. Bu gün muxtar respublikada uşaqdan böyüyə hər kəsin zəhmətinə böyük dəyər verilir. Heç kim diqqətdən kənarda qalmır.

- İnsanlara saygı. Muxtar respublika rəhbərinin ziyalı ilə ziyalı, müəllimlə müəllim, əkinçi ilə əkinçi ünsiyyətinin şahidiyik.

- Səmimiyyət. Bunu ən ucqar kəndlərdən tutmuş şəhər mərkəzində yaşayan sakinlərlə görüşlərdə müşahidə etmişik. Muxtar respublika rəhbərinin festival, yarmarkalarda məhsul istehsalçılarının qayğısı ilə maraqlanmasında, onların məhsullarının ilk alıcısı olmasında görmüşük.



- Gənclərlə dostluq. Bu hər an gənclərin təhsilinə, sağlamlığına qayğıda hiss olunub. Hər il ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan onlarla gənclə təktək görüşüb, onlara hədiyyələrin təqdim edilməsində, uğurlar arzulanmasında, gənc ailələrin mənzillə təminatında görmüşük.

- İstedada qiymət. Naxçıvanda istedadlı insanlar, onların inkişafı üçün hərtərəfli şəraitin yaradılmasının da şahidiyik.

- Həmişə qürur duyduğumuz ən önəmli bir məsələ. Naxçıvanda əlil sözü illər öncədən sağlamlıq imkanları məhdud şəxs sözü ilə əvəz olunub. Bu, muxtar respublika rəhbərinin illərlə nitqlərində əlil yox, sağlamlıq imkanları məhdud sözünü səsləndirməsi ilə formalaşıb və hər kəsin bu cür ifadə tərzinə çevrilib. Bütün bunlar isə bir siyasi şəxsiyyətin özünəməxsus xarakterində insani dəyərin ən ali mərhələsidir.

Bu gündən baxanda gözlər önündə qaranlıq bir mənzərə kimi canlanan 25 il əvvəlki Naxçıvan Konfutsinin bir kəlamını xatırladır: "Qaranlığı lənətləməkdənsə, dur bir şam yandır". Biz qaranlığı lənətləmədik, əksinə, muxtar respublika rəhbərinin yandırdığı və yolumuza tutduğu şamla irəliyə doğru addımladıq. Coğrafi ərazisinə görə də, düşdüyü vəziyyətə görə də ağır şəraitdə olan Naxçıvan cənab Vasif Talıbovun potensialı, ulu öndərdən mənfəətləndiyi siyasi qabiliyyəti ilə o ağır, şam işığına möhtac illəri günbəgün arxada qoyaraq işığa, inkişafa, xoş günlərə doğru yol aldı. O illər ki hər insan o ağır yükü çiyinlərinə götürməyə özündə güc tapa bilməzdi. Lakin tarixdə o insanlar böyük şəxsiyyətlərə çevrilirlər ki, məhz belə ağır vəziyyətlərdə vəzifələrinin öhdəsindən layiqincə gələ bilirlər. Belə insanlar tarix yazan insanlardır. Tarixi yazanları isə tarixin özü yaşadır.

Bu gün Naxçıvan ulu öndərimizin arzu və istəklərinin reallaşması ilə işıqlanan, hər birimizin qürur yerimiz olan doğma diyarımızdır. Ötən 25 ilin müstəqillik, sabitlik, inkişaf, ən əsası isə Vətənə, xalqa məhəbbət müstəvisində məğrur dayanan Naxçıvan... Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına layaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir".***


**Mətanət MƏMMƏDOVA**
*Azərbaycan Respublikasının Əməkdar jurnalisti*

***Budəfəki yazımızın mövzusu mənfur düşmənlə üz-üzə məğrur dayanaraq, dosta fəxarət, düşmənə gözdağı olan yurd yerimiz Şərur rayonunun Havuş kəndidir. Bu yaşayış məntəqəsi haqqında çox eşitmişəm. Ötən əsrin səksəninci illərinin sonlarında kənd adamlarının əsl sərhədçi ömrü yaşamaları, düşmən qabağında qəlblərində yurda sevgi, məhəbbət hissləri ilə məğrur dayanmalarını da bilirəm. Ancaq kəndə ilk dəfədir ki, getmək imkanı qazanmışam. Bir-birini əvəz edən, hamısı da son illərdə quruculuq tədbirlərindən öz bəhrələrini alan kəndlərdən keçirik. Gördüklərimiz qəlbimizə bir hərarət gətirir. Axura kəndindən sonra sıldırım qayaların qoynunda ilan kimi qıvrılan yolla həmin ünvana çatmağa tələsirik. Bu yerdə yadıma bir şeirin misraları düşür:***

*Xınalı kəkliyin nəğməsi bol-bol,*
*Görən hara qalxır dolanan bu yol?*
*Çeşmələr çağırır, gəl mehmanım ol,*
*Çılğın qayaların mehi nə xoşdur –*
*Bura HAVUŞdur.*



*Sərhəd kəndlərimiz*

# Dağlar kimi vüqarlı kənd – Havuş

Vüqarlı dağları geridə qoyaraq irəlilədikcə burada yaşayan insanlara rəğbətimiz artır. Sərt iqlim şəraitində ömür sürənlərin həyat tərzi məndə daha da maraq oyadır. Budur, uzaqdan dağların qoynunda qərar tutmuş Havuş, kəndi mənfurlardan qoruyan Silahlı Qüvvələrimizin hərbçiləri görünməkdədir. İnsanların burada, düşmənlə bir addımlıq məsafədə arxayın yaşamasının əsas səbəbini anlamaq heç də çətin deyil. Kəndə yaxınlaşırıq. Bizi ilk qarşılayan kəndin girişində yerləşən və təmir olunaraq insanların istifadəsinə verilən "Şırnalı bulaq" olur. Bulağın buz kimi suyundan içdikdən sonra yolumuza davam edirik. Artıq mənzilbaşına çatmışıq.



Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Arzuman Camalov ilə kəndlə tanışlığımız başlayır. O deyir ki, Havuş rayon mərkəzindən, təxminən, 30-35 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 2 min metr hündürlükdə yerləşir. 57 sakin əl-ələ verərək, əsasən, heyvandarlıq və arıçılıqla məşğul olur. Onlar həyətyanı sahələrində tərəvəz əkib-becərir, müxtəlif meyvə sortları yetişdirirlər. Kənddə hektarlarla cəviz, alma bağı vardır. Əkin üçün az əlverişli olan torpaqlarımızın, demək olar ki, çox hissəsindən otlaq və biçənək kimi istifadə edirlər. Bununla da gün-güzə-



ranlarını yaxşılaşdırırlar.

Arzuman Camalov deyir ki, muxtar respublikamızda aparılan abadlıq-quruculuq tədbirləri bizim Havuşdan da yan keçməyib. Son zamanlarda burada aparılan quruculuq işləri, sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlər bir vaxtlar kənddən köçüb başqa ünvanlarda məskunlaşan sakinlərin yenidən doğma yurd-yuvaya qayıtmasına geniş imkanlar açıb. Kənddə tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi fəaliyyət göstərir ki, bu da ucqar dağlıq ərazidə yaşayan insanlara olan qayğının bariz nümunəsidir.

Yeni ünvanlarda yaradılan şəraitlə tanış olmaq istəyimi bildirirəm. Həmin ünvanlardan biri müasir məktəb binasıdır. Yadıma ümummilli liderimizin ***"Təhsil millətin gələcəyidir"*** deyimi düşür. Məktəbin direktoru Mehman Həsənovla həmsöhbət oluruq. Əvvəlcə ondan kəndin etimologiyası barədə soruşuram. Deyir ki, gözəl təbiəti, bumbuz bulaqları, fauna və florası zəngin olan yurd yerimizin tarixi xeyli qədimə dayanır. Bunu ən qədim yaşayış məskənlərindən biri sayılan Havuş mağarası da sübut edir. Kənddə "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları ilə səsləşən "Qız qalası" (el arasında "Qız evi"), "Tamaşalıq", "Sarıbulaq", "Gəlin qayası", "Çıraqxana", "Hellangələn", "Dəlikdaş", "Xangəldi", "Təkarmud", "Havuş piri" kimi yer adları da var. Vüqarla sıraya düzülən dağlardan axıb gələn gur şəlalə isə Havuşa ayrı bir gözəllik verir. Məktəbimizə gəldikdə isə burada istər müəllimlər, istərsə də şagirdlər üçün lazımi şərait yaradılıb. Məktəb 60 şagird yerlikdir. Uşaqlarımızı vətənpərvər ruhda tərbiyə etmək üçün əlimizdən gələni edirik. Çünki gələcəkdə Vətənimizin müdafiəçiləri olacaq gənclərdə vətənpərvərlik hissləri formalaşdırmaq ilk olaraq məktəbin üzərinə düşür. Pedaqoji kollektiv bu vəzifənin yerinə yetirilməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə edir. Bu istiqamətdə sinifdənxaric və məktəbdənkənar tədbirlərə geniş yer veririk. Mehman müəllim onu da qürur hissi ilə xatırladır ki, Azərbaycan Ordusunun sentyabr ayının 27-də erməni silahlılarına qarşı əks-hücum əməliyyatlarına başlaması və tarixi Qələbə qazanması məktəbimizdə, həmçinin kənddə sevinc hissi ilə qarşılandı. Bununla bağlı yığıncaq ke-



çirdik, şəhidlərimizə rəhmət dilədik, qazilərimizə sağlamlıq arzuladıq. Uşaqlar ordumuzu, qələbəmizi tərənnüm edən şeirlər söylədilər.

Məktəbdə təhsil alan şagirdlərlə də görüşdük. 8-ci sinif şagirdi Əfruz İbrahimova deyir ki, biz bu kənddə yaşamağımızla qürur duyuruq. Burada bizim yaxşı təhsil almağımız üçün hər cür şərait yaradılıb. Şəhər məktəblərində olduğu kimi, elektron lövhəli sinif otaqlarımız var. Digər məktəblərdə təhsil alan yaşıdlarımızla distant qaydada fikir mübadiləsi apara bilirik. Məktəbimizdə müxtəlif fənn laboratoriyaları da yaradılıb. Mənim ən çox sevdiyim fənn isə Azərbaycan tarixidir. Çünki biz gözümüzü açandan mənfur düşmənlərimizin tarixboyu xalqımızın başına gətirdikləri fəlakətləri eşidərək böyümüşük. Tarixən yaşadığımız bütün ağrı-acılar onlara nifrətimizi daha da artırıb.

Sonra kəndlə tanışlığımızı davam etdirir, sakinlərlə görüşmək üçün onların evlərinə üz tuturuq. Buradakı hərbi hissənin əsgərləri ilə yerli əhalinin səmimi münasibətlərini gördükcə xalq-ordu birliyinin bir daha şahidi oluruq. Üz tutduğumuz evdə bizi Pəri İbrahimova qarşılayır. Salamlaşıb hal-əhval tuturuq. İlk sualımız belə olur: – Mənfurlarla üz-üzə yaşayırsız. Bu sizi qorxutmur ki?

Pəri xanım çox məntiqli cavab verir: – Qorxsaq burada niyə yaşayırıq? 1990-cı illərin hadisələrində bu yerlərdə güllə yağışından baş qaldırmaq mümkün deyildi. Mənfur düşmənin hücumları nəticəsində yaşayış evlərimiz dağıdılırdı. Lakin həmin vaxtlarda belə, kənd sakinləri heç bir yerə tərpənmədən kəndimizin müdafiəsinə qalxdılar. Bu gün Havuşda yaradılan şərait düşmənə gözdağıdır. İndi biz evlərimizdə rahat şəraitdə yaşayırıq. Ucqar yaşayış məskəni olmasına baxmayaraq, evlərimiz mavi yanacaqla, fasiləsiz enerji ilə təmin olunub. Bir zamanlar şəhərlə kənd arasındakı olan kəskin fərq illərdir ki, aradan qaldırılıb. Heç bir çətinliyimiz yoxdur. Heyvan saxlayır, müxtəlif meyvələr yetişdiririk. Havuşda yetişdirilən meyvələr öz dad-tamı ilə məşhurdur. Yabanı halda bitən əppəkli, qaraca, yemişan, dağarmudu, həmərsin, kəklikotu, qantəpər, digər meyvə və dərman bitkiləri isə min bir dərdin dərmanıdır ki, həmin nemətləri yayda toplayır, qurudur, qış aylarında da istifadə edirik.

*Bu yurd yerinin zəhmətkeş, məğrur insanları ilə söhbət məndə böyük qürur hissi yaratdı. Kəndi tanıyana qədər muxtar respublikanın bir neçə sərhəd yaşayış məntəqəsində olmuş, həmin ünvanlarda yaradılan şəraiti görmüşdüm. Demək istəyirəm ki, bu gün qədim diyarımızın hər bir kəndi, qəsəbəsi, rayon mərkəzi hərtərəfli qayğı əhatəsindədir. Bu sırada sərhəd kəndləri öndə gedir. Həmin ünvanlarda yaşayan sakinlərdə qurub-yaratmaq əzmini yüksəldir. Havuşlular da eləcə...*

**Telli MƏMMƏDOVA**

# Muxtar respublikamızın təbii iqlim şəraiti bu faydalı meyvənin yetişdirilməsi üçün də əlverişlidir

*"Aldım bir dənə, açdım min dənə". Çoxunuz bilsəniz də, deyim ki, bu tapmacanın açması payız mövsümündə ağız dadı ilə yediyimiz nardır. Oktyabrdan, bəzən isə daha əvvəldən başlayaraq yanvaradək hər birimiz bu möhtəşəm meyvədən dadırıq. Bir çox mədəniyyətlərdə və dinlərdə qədim simvollardan biri sayılır nar. Müqəddəs kitabımız "Qurani-Kərim"in "Rəhman" surəsində deyilir ki, "O iki cənnətdə (hər növ) meyvə (ağacı) xurma və nar ağac(lar)ı vardır". Bu onu göstərir ki, nar həm dünyamızın, həm də cənnətin gözəl meyvələrindəndir.*

Qədim Şərqdə nar bütün meyvələrin şahı və insanların istifadə etdiyi ilk meyvələrdən biri hesab olunub. Xarici görkəminə görə də digər meyvələrdən odlu-qırmızılı tacı ilə seçilən, sirli quruluşa malik bu meyvəni min bir dərdin dərmanı olması daha da məşhurlaşdırıb. Məişətdə, mətbəxdə, təbabətdə geniş şəkildə istifadə olunan nar çox uzun müddət, sadəcə, hörmətli adamların və padşahların hüzuruna çıxarılıb. Zamanla bu meyvə öz xüsusi görünüşü ilə obraz formasına da çevrilib. Folklorda, xalq inanclarında, əfsanələrdə, məsəllərdə, nağıllarda, atalar sözlərində nar obrazı müxtəlif şəkildə mənalandırılıb. Qədim türk inanclarında nar ağacı müqəddəs hesab edilib. 200-300 il ömrü olan bu ağaclar bolluq və bərəkətin rəmzi sayılıb. Nar ağacı və meyvəsinin motivləri nəsil artımı və əbədilik simvolu kimi mədəniyyət və incəsənət nümunələrində, rəssamlıqda, xalçaçılıqda bu gün də geniş istifadə olunur.

Dünyada ən çox nar istehsal edən ölkələr sırasında Hindistan, İran və Çin dayansa da, Azərbaycanda da narın bütün növləri yetişdirilir və bir sıra xarici ölkələrə ixrac edilir. Ölkəmizin ərazisində hər birinin öz dadı və rəngi ilə seçilən "Venəs", "Şirin", "Gülöyşə", "Şıxbaba", "Şahnur" və digər növlər becərilir. Narın müxtəlif növlərindən təbabətdə və sənayedə geniş istifadə edilir.

Nar kənd təsərrüfatında istehsal olunan məhsullar arasında ən perspektivli ixrac potensialına malik məhsuldur. Muxtar respublikamızda da nar əkib-becərən təsərrüfatçılarımız çoxdur. Babək şəhər sakini Cabbar Cəlilovun təsərrüfatında becərdiyi meyvə ağacları içərisində nar mühüm yer tutur. Müsahibim deyir ki, nar çox qədimdən becərilən və istifadə olunan bitkidir. O, nar əkib-becərməklə məşğul olduğu müddətdə bu meyvə ilə bağlı öyrəndiklərini, topladığı məlumatları da bizimlə bölüşür. Bildirir ki, payız aylarının ən çox sevilən meyvəsi olan narın insan orqanizminə bir çox faydaları vardır. Hələ qədimdə atalar deyiblər ki, nar girməyən evə loğman girər. Həkimlər deyirlər ki, sağlam yaşamaq və bir sıra xəstəliklərin müalicəsi üçün nar əvəzedilməz meyvədir.



Həmsöhbətim onu da əlavə edir ki, şəkər və limon turşusu ilə yanaşı, C, B1, B2 vitaminlər ilə, boyayıcı maddələrlə, makro və mikroelementlərlə də zəngin bu meyvənin tərkibində iltihab əleyhinə maddələrin olması orqanizmdə xərçəng hüceyrələrinin inkişafının qarşısını almağa kömək edir. Ata-babalarımızdan da eşitmişik ki, nar immuniteti artırır, həzmi yaxşılaşdırır, qızdırmanı və yorğunluğu aradan qaldırır, bədənə enerji verir, ürəyi, mədəni qüvvətləndirir. Onu çay kimi dəmləyib, mədə-bağırsaq xəstəliklərində ishala və dizenteriyaya qarşı qəbul edirlər. Həmçinin bu meyvədən hazırlanan narşərab böyrək, qaraciyər, şəkər xəstəlikləri üçün xeyirlidir. Narın həm də bir çox qida və dərman məhsullarının əsas tərkib hissəsini təşkil edir. Narın toxumlarından alınan şirə və efir yağları kosmetologiyada, meyvə qabığı və çiçəkləri boyaqçılıqda, bir sıra növləri bəzək bağçılığında istifadə edilir, milli kulinariyamızda xüsusi yer tutur.

Müsahibim onu da qeyd edir ki, muxtar respublikamızda olan əlverişli torpaq-iqlim şəraiti imkan verir ki, narı burada da becərək. Bu meyvə müxtəlif iqlim və torpaq şəraitinə uyğunlaşır. İstisevən bitki olsa da, soyuğa da davamlıdır. Sentyabr-oktyabr aylarında meyvə verir. Qış aylarına qədər budağında qalması və uzun müddət mühafizə edilməsi satış üçün də əlverişlidir. Belə müalicəvi əhəmiyyəti olan meyvəni yetişdirmək xüsusi aqrotexniki qulluq tələb edir. Nar təsərrüfatlarda, əsasən, qələmələrlə yetişdirilir və ağac üçüncü il, bəzən isə ikinci ildən bar verməyə başlayır. Yetişdirilən növlər bölgənin iqliminə, torpağın məhsuldarlığına, daşınmağa dözümlü olmasına görə fərqlənir. Məhsulu növlərinə uyğun şəkildə yığmaq lazımdır. Bu, narın formasının qorunması, eləcə də onun uzun müddət saxlanılmasında əsas rol oynayır. Narı soyuducu anbarlarda, eyni zamanda evdə yarımqaranlıq yerdə 15-20 dərəcə temperaturda uzun müddət saxlamaq olur. Müsahibim nardan müxtəlif məhsullar – şirə, mürəbbə, kompot və həmçinin digər konsentrat məhsullar hazırlayır, eləcə də ondan bir çox xəstəliklərin qarşısını almaq üçün istifadə edir.

*Hazırda Azərbaycanda nar məhsullarının istehsalı və ixracı ilə məşğul olan sahibkarlıq subyektləri narı həm tər meyvə, həm də emal olunmuş formada daxili və xarici bazarlara çıxarırlar. Diyarımız Naxçıvan da ta əzəldən özünün müxtəlif meyvələri ilə tanınıb. Sevindirici haldır ki, özünəməxsus dadı və görünüşü ilə seçilən nar da muxtar respublikamızın məhsuldar torpaqlarında yetişdirilir və özünə bazarda real alıcı qazana bilib.*

**Güntac ŞAHMƏMMƏDLİ**

Yeni nəşrlər

# Naxçıvanşünaslığa və ədəbiyyatşünaslığa layiqli töhfə

***Qədim və zəngin tarixə malik Naxçıvan diyarının iyirminci əsrdə yetirdiyi görkəmli ziyalılar sırasında yazıçı, tərcüməçi, tənqidçi və publisist Ələkbər Qərib (Abbasov) Naxçıvanlının özünəməxsus yeri vardır. Onun qələmə aldığı povest və hekayələr, ədəbi-tənqidi və publisistik məqalələr, müxtəlif xalqların ədəbiyyatlarından etdiyi tərcümələr öz dəyərini bu gün də saxlamaqdadır. Görkəmli ziyalının çoxşaxəli fəaliyyətinin, zəngin yaradıcılığının, ədəbi-bədii irsinin öyrənilmədiyini nəzərə alan filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Hüseyn Həşimli keçən əsrin 90-cı illərindən Naxçıvan ədəbi mühitinin bu görkəmli nümayəndəsinin ömür yolu və bədii yaradıcılığının dərindən tədqiqi ilə məşğul olmuşdur. O bu sahədəki araşdırmaları haqqında hələ "Şərq qapısı" qəzetinin 12 oktyabr 2017-ci il tarixli nömrəsində yazırdı ki, "unudulmuş ədibin ədəbi irsinin sorağı ilə Azərbaycan və Gürcüstan arxivlərində, kitabxanalarında, müxtəlif mətbuat nümunələrində apardığımız uzunmüddətli araşdırmalar nəticəsində onun həyat və yaradıcılığına aid çoxsaylı materiallar əldə etmişik. Yazıçının əsərlərini və onun haqqında monoqrafiyanı çapa hazırlayırıq". Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, ömür vəfa etmədiyi üçün professor Hüseyn Həşimli həmin kitabları nəşrə təqdim edə bilməmişdi.***




Təqdirəlayiq haldır ki, bu günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və Bilik Fondunun dəstəyi ilə professor Hüseyn Həşimlinin "Unudulmuş yazıçı: Ələkbər Qərib Naxçıvanlı" monoqrafiyası və onun toplayıb çapa hazırladığı əsərlərindən böyük bir qismini əhatə edən "Haqq divanı" kitabı "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görmüşdür.

Monoqrafiya elmi-redaktor, filologiya üzrə fəlsəfə doktoru, dosent Seyid Surənin yazdığı ön söz ilə başlayır. Ön sözdə də doğru olaraq göstərildiyi kimi, bu böyük qələm ustası səmərəli, məhsuldar fəaliyyəti ilə diqqəti çəkən istedadlı, lakin unudulmuş, yaradıcılığı araşdırılmamış sənətkarlarımızdan biridir. Sağlığında Ələkbər Qərib Naxçıvanlı ilə bağlı mətbuatda onlarla məqaləsi çap olunan və bu istedadlı yazıçını elmi ictimaiyyətə təqdim edən professor Hüseyn Həşimlinin ən böyük arzusu, yuxarıda da qeyd edildiyi kimi, onun haqqında monoqrafiyanın və əsərlərinin işıq üzü görməsi idi. Yeri gəlmişkən qeyd edək ki, professor Həşimli Naxçıvan ədəbi mühitinin XX əsrin əvvəllərinə aid dövrünün öyrənilməsində böyük xidmətlər göstərmişdir. Onun uzunmüddətli axtarışları sayəsində az öyrənilmiş Əli Səbri Qasımov, Məhəmmədəli Sidqi (Səfərov) kimi ədəbiyyat adamlarının ədəbi-bədii irsi dərindən tədqiq olunub ədəbi ictimaiyyətin istifadəsinə təqdim edilmişdir.

Dörd fəsildən ibarət olan "Unudulmuş yazıçı: Ələkbər Qərib Naxçıvanlı" monoqrafiyasının I fəslində unudulmuş sənətkarın ömür yolundan bəhs edilir. 1893 və ya 1894-cü ildə Naxçıvan şəhərində dünyaya gələn Ələkbər Qərib Abbasov 1909-1913-cü illərdə Qori şəhərindəki məşhur Cənubi Qafqaz Müəllimlər Seminariyasında oxumuşdur. Təhsilini başa vurduqdan sonra bir müddət Bakıda yaşayan sənətkarın 1914-cü ildə "Orucov qardaşları" mətbəəsində "Haqq divanı" adlı hekayələr məcmuəsi nəşr olunur. O,1918-1927-ci illərdə Tiflisdə yaşayıb fəaliyyət göstərmiş və burada nəşr olunan "Yeni fikir", "Gələcək", "Gənclər yurdu", "Dan yıldızı", "Qızıl şəfəq" kimi mətbuat orqanları ilə əməkdaşlıq etmişdir. İstedadlı nasir və naşir 1927-ci ilin sonlarında Bakıya köçmüşdür. Burada o, nəşriyyat sistemində (Azərnəşr) çalışmış, daha çox tərcüməçi kimi fəaliyyət göstərmişdir. Ələkbər Qərib Naxçıvanlı 1939 və ya 1940-cı ildə repressiya qurbanı olmuşdur.

Müəllifin də qeyd etdiyi kimi, Ə.Q.Naxçıvanlının çoxşaxəli sənət yolunun, səmərəli və məhsuldar yaradıcılığının ətraflı şəkildə araşdırılması, bütövlükdə, 1910-1930-cu illərin ədəbi prosesinin müxtəlif məqam və problemlərini, ədəbi-publisistik irsimizin bir sıra unudulmuş səhifələrini də aydınlaşdırmağa imkan verir.

Monoqrafiyanın II fəsli yazıçının bədii yaradıcılığının təhlil və tədqiqinə həsr olunmuşdur. Onu da qeyd edək ki, professor Həşimli hələ "Naxçıvanlı yazıçılar "Məktəb" jurnalında"(2019) adlı monoqrafiyasında o dövrdə seminariya tələbəsi olmuş gələcəyin istedadlı yazıçısının yaradıcılığından bəhs etmiş və jurnalda nəşr olunmuş "Bacı və qardaş" hekayəsinin mətnini kitaba daxil etmişdi.

Monoqrafiyanın bu fəslində yazıçının müxtəlif mətbu orqanlarda dərc olunmuş "Zavallı Leyla xala" hekayəsi, "Bacı və qardaş" hekayəsi, "Haqq divanı"(1914) kitabında nəşr olunmuş üç hekayəsi ("Haqq divanı", "Faciə", "Uşaq divanı"), "Tamahkarlığın nəticəsi", "Əfi ilan" hekayəsi, 1912-ci ildə Bakıda "Orucov qardaşları" mətbəəsində kitab halında nəşr olunan "Qəlbimin sultanı" povesti ətraflı şəkildə araşdırılmış, təhlil edilmişdir. Onun nəsr əsərlərini uşaqlar üçün yazılmış didaktik hekayələr və məhəbbət mövzusunda yazılmış əsərlər şəklində qruplaşdırmaq olar. Bu əsərlərdə dərin psixologizm, obrazların mənəvi aləminin önə çəkilməsi, lirik ovqat, emosional təhkiyə, anlaşıqlı süjet xətti, cazibədar kompozisiya, axıcı dil, cilalanmış üslub, xüsusilə diqqəti cəlb edir. Professor Həşimlinin də qeyd etdiyi kimi, bu əsərləri ilə Ələkbər Qərib uşaq nəsrimizdə önəmli yer tutduğu kimi, Azərbaycan ədəbiyyatında sentimentalizm cərəyanının inkişafına da layiqli xidmət göstərmişdir. Ə.Q.Naxçıvanlının nəsr əsərləri həm mövzu-ideya, həm də bədii-sənətkarlıq məziyyətləri ilə səciyyələnir.

"Ədəbi-tənqidi və publisistik irsi" adlanan III fəsildə qüdrətli söz ustasının müxtəlif illərdə mətbuatda dərc olunmuş "L.N.Tolstoyun ətfalına tərbiyə verməsi", "Milli şairimiz Sabir", "Qan dəryası", "Kinolarda "Bismillah", "Mövhumatçılıq bayramı" məqalələri təhlil və tədqiq edilmişdir. Ələkbər Qərib məqalələrində Vətən və xalq taleyi, beynəlxalq aləmdə baş verən hadisələr, sosial-mədəni tərəqqi, təlim-tərbiyə, qadın azadlığı kimi mövzulara həssas münasibət göstərmişdir.

Müəllifin "Qan dəryası" adlı publisistik yazısında erməni daşnaklarının bolşevik cildinə girərək Bakıda törətdikləri soyqırımı təsirli boyalarla təsvir edilmiş və erməni faşistlərin bu şəhəri qan dəryasına çevirmələri lənətlənmişdir.

"Tərcüməçilik və naşirlik fəaliyyəti" adlanan IV fəsildə yazıçının rus yazıçısı Karamzinin "Bədbəxt Liza" əsərinin tərcüməsi, M.Y.Lermontovun "Zəmanəmizin qəhrəmanı" romanının tərcüməsi, Lyaşkonun "Domna ocağı" əsərinin tərcüməsi və rus şairi A.S.Puşkinin "Dubrovski" əsərinin dilimizə tərcüməsindən bəhs edən "Bir tərcümə haqqında" məqaləsi ilə bağlı araşdırmalar öz əksini tapmışdır.

Xalq maarif komissarı Ruhulla Axundovun redaktorluğu və rəhbərliyi altında 1928-1929-cu illərdə nəşr olunmuş 50 min sözdən ibarət 2 cildlik "Rusca-türkcə (azərbaycanca) lüğət" o dövrün ən mükəmməl tərcümə lüğəti hesab edilirdi. Bu kitabın ərsəyə gəlməsində rus dilini kamil bilən tərcüməçi kimi Ələkbər Qəribin də böyük əməyi olmuşdur. Belə ki, "Rusca-türkcə (azərbaycanca) lüğət" kitabının tərtibçilərindən biri də Ələkbər Qərib Naxçıvanlı idi.

O, naşir kimi də əlliyə qədər, əsasən, rus dilindən tərcümə edilmiş bədii əsərin redaktoru olmuşdur. Ələkbər Qərib Naxçıvanlının redaktorluq işi onun tərcümə sahəsindəki professional fəaliyyətinin tərkib hissəsidir. Bu tərcümə əsərlərinin Ələkbər Qəribin redaktorluğu ilə çap edilməsi onun nüfuzlu qələm sahibi, kamil mütəxəssis olmasından xəbər verir. Ümumiyyətlə, Ə.Q.Naxçıvanlının tərcüməçilik fəaliyyəti özünün dolğunluğu, mükəmməlliyi və çoxşaxəli olması ilə diqqəti çəkir.

Professor Hüseyn Həşimlinin bu monoqrafiyası ilə yanaşı, tərtib edib çapa hazırladığı unudulmuş ədibin əsas əsərləri də "Haqq divanı" adı altında "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuşdur. Kitabın rəyçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Seyid Surədir. Yeni nəşrə "Haqq divanı" adının verilməsi onun 1914-cü ildə bu adla üç hekayəsindən ibarət kitabının çap edilməsi ilə əlaqədardır. Kitab mərhum professorun "Unudulmuş ədibin sənət dünyası" adlı ön sözü ilə başlayır. Burada Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndəsi, unudulmuş söz ustası Ə.Qəribin bədii yaradıcılığını təmsil edən, kitabda öz əksini tapan əsərlər barəsində oxucuda ümumi təsəvvür yaratmaq üçün onlar haqqında yığcam şəkildə məlumat verilmişdir. Bu kitabda gözəçarpan diqqətəlayiq faktlardan biri də odur ki, müəllif ilk dəfə Ə.Qəribin sovet dövründə (təxminən, 1923-1926-cı illər arası) "Azadlıq bahası" adlı roman üzərində işləməsini, əsərdən bəzi parçaları Tiflis mətbuatında dərc etdirməsini göstərmişdir.

Kitabda unudulmuş yazıçının bütün hekayələri, bir povesti, əsas publisistik və ədəbi-tənqidi məqalələri, bəzi məktublarından nümunələr, bir bədii tərcüməsi ("Bədbəxt Liza"), dilimizə çevirdiyi 2 əsərin tərcüməsi haqqında iki resenziya mətni verilmişdir.

Beləliklə, Ələkbər Qərib Naxçıvanlının yaradıcılıq fəaliyyətinin ətraflı tədqiqi və əsas əsərlərinin nəşri, bütövlükdə, Naxçıvan ədəbi mühitinin, eləcə də XX əsrin əvvəllərinin ədəbi prosesinin bir sıra önəmli məqam və problemlərinin öyrənilməsinə də işıq tutur.

*Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Hüseyn Həşimlinin "Unudulmuş yazıçı: Ələkbər Qərib Naxçıvanlı" monoqrafiyası və tərtib etdiyi "Haqq divanı" kitabı Naxçıvan ədəbi mühitinin öyrənilməsinə, Naxçıvanşünaslığa layiqli töhfədir.*

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü***

***Müasir Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanılması mövcud geosiyasi vəziyyətdə çox böyük siyasi təcrübə, bacarıqlı diplomatik gedişlər, beynəlxalq müstəvidə müstəqillik atributlarını müdafiə etmək bacarığı, müasir ordu quruculuğu işlərinin həyata keçirilməsini tələb edir. Bu istiqamətdə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu yol bu gün dahi şəxsiyyətin layiqli siyasi varisi, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən ardıcıl davam etdirilir.***

# Qələbə – polis veteranlarının da səbirsizliklə gözlədiyi gün!



Məlum olduğu kimi, 30 ilə yaxın bir dövr ərzində Azərbaycanın müstəqilliyinə Ermənistan tərəfindən hərbi təcavüz edilmiş, nəticədə, torpaqlarımızın 20 faizi işğal olunmuşdu. Torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində uzun müddət danışıqlar aparılsa da, müsbət nəticə əldə olunmamışdı.

Buna baxmayaraq, ordu quruculuğu davam etdirilir, ən başlıcası isə siyasi-diplomatik kanallar vasitəsilə beynəlxalq ictimaiyyəti mövcud vəziyyətlə tanış etmək, dünya ictimaiyyətinə əsl həqiqəti çatdırmaq məqsədilə ardıcıl iş aparılırdı. Bu istiqamətdə ölkə Prezidenti cənab İlham Əliyevin fəaliyyəti, xüsusilə böyük olmuşdur. O, böyük səbir, yüksək iradə və müdrikliklə çalışaraq mötəbər beynəlxalq tribunalarda erməni siyasi təbliğat maşınını iflasa uğratdı və torpaqların işğaldan azad olunması üçün maraqlarımıza xidmət edən hərbi-siyasi platformanı formalaşdırdı. Prezidentimizin bu gərgin siyasi fəaliyyətinin nəticəsi olaraq artıq Vətən müharibəsi başlayanda Azərbaycanın haqq işini, demək olar ki, dünyanın əksər ölkələri dəstəkləyirdi. Qardaş Türkiyə başda olmaqla, dost ölkələr isə Azərbaycanın mövqeyini müdafiə edərək haqq tərəfdarı olduqlarını nümayiş etdirdilər.

Ötən dövrdə həyata keçirilən hərbi-siyasi hazırlıqlar şanlı Qələbə ilə yekunlaşdı. 27 sentyabr 2020-ci il tarixdə ermənilərin növbəti təxribatına cavab olaraq qüdrətli Azərbaycan Ordusunun əks-hücumu çox qısa bir müddətdə qorxaq erməni ordusunun əsas hissəsinin dağıdılması, ədalətin bərpa olunması və Vətənimizin düşmən işğalından azad edilməsi ilə nəticələndi. Cəmi 44 gün davam edən Vətən müharibəsi tarixə "XXI əsrin müharibəsi" adı ilə düşdü. Döyüş əməliyyatlarında ordumuz yeni texnologiyalar, müasir döyüş texnikaları, yeni döyüş taktika və üsulları tətbiq etməklə əsl tarix yazdı. Müharibə itkisiz olmur, amma bu müharibədə "az itki, böyük uğur" prinsipi əsas götürülərək düşmən üzərində parlaq qələbə qazanıldı və Azərbaycan Ordusu dünya hərb tarixinə öz adını qızıl hərflərlə yazdı.

Müasir silahlarla təmin edilmiş güclü orduya malik olmağımız müharibədə qələbəmizin səbəblərindən biri kimi dəyərləndirilməlidir. Bütün dünya gördü ki, Ermənistanın dövlət büdcəsinə bərabər tutulan hərbi büdcəmiz sayəsində müasir və beynəlxalq standartlara uyğun olan silahlar, texnika və pilotsuz uçuş aparatları, digər aviasiya vasitələri, artilleriya qurğuları döyüş əməliyyatlarının müvəffəqiyyətlə aparılmasının başlıca təminatı oldu. Lakin Azərbaycan Ordusunun gücü təkcə texnikada deyil. Bu gücün əsasını həm də əsgərlərimizin Vətən sevgisi, dövlət-xalq-ordu birliyi təşkil edir. 44 gün ərzində bu birliyin gözəl nümunəsi yarandı. Bu müddət ərzində hamı bir nəfər kimi öz ordusunun yanında oldu. İnsanlar orduya dəstək olaraq maddi yardımlar edir, hərbi birləşmələrin ön hissələrinə gedərək həmrəylik nümayiş etdirirdilər. Xalqın bu addımı öz ordusuna qayğının ifadəsi, birliyin təcəssümüdür. Bu gərgin günlərdə Ali Baş Komandanımızın fəaliyyəti isə, xüsusilə əhəmiyyətli oldu. O, istər döyüş meydanında, istərsə də informasiya müharibəsində düşmənə layiqli ibrət dərsi verdi. 10 noyabr 2020-ci il tarixdə Ermənistan hökuməti müharibəyə son qoyulması, işğalçı dövlətin qoşunlarının torpaqlarımızdan tamamilə çıxarılması və işğal altında olan torpaqların qaytarılması haqqında Bəyanatı imzalamağa məcbur oldu. Bu Bəyanat, əslində, Ermənistanın hərbi kapitulyasiyası kimi qiymətləndirilərək döyüş meydanında əldə olunan qələbəni rəsmiləşdirdi. Qəhrəman oğullarımızın qanı bahasına əldə olunan bu qələbə Azərbaycanın ərazi bütövlüyünü təmin etdi.

Müzəffər Ordumuzun əldə etdiyi tarixi Qələbə, şübhəsiz ki, böyükdən-kiçiyə bütün Azərbaycan xalqına sevinc və qürur hissi yaşatdı. Bu qələbə vaxtilə Birinci Qarabağ müharibəsi iştirakçıları olan biz polis veteranlarını, xüsusilə sevindirir. Ermənistan Dağlıq Qarabağ və onun ətraf rayonlarını işğal etməyə başlayanda Naxçıvan daxili işlər orqanlarının əməkdaşları ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etməyə başladı. Bu yolda Naxçıvan polisi 17 şəhid vermiş, xeyli sayda yaralanan olmuşdur. Qürurverici haldır ki, Azərbaycanın ilk Milli Qəhrəmanı məhz Naxçıvan polisinin əməkdaşı kapitan Məhərrəm Seyidov olmuşdur. Biz polis veteranlarının əksəriyyəti həmin döyüşlərin iştirakçısı – müharibə veteranlarıyıq.

Polis veteranları indi də torpaqlarımızın azad edilməsində Naxçıvan polisinin 1988-1994-cü illərdə göstərdiyi şücaəti təkrar etməyə hazır olduqlarını ifadə edərək könüllü surətdə cəbhəyə getmək istədiklərini bildirmişlər. Yaş həddi məhdudiyyəti nəzərə alındığına görə, İkinci Qarabağ savaşında iştirak onlara nəsib olmasa da, veteranlarımızın övladları atalarının şanlı döyüş estafetini davam etdirərərək torpaqlarımızın düşməndən azad edilməsində cəsurluq göstərmiş və onlar arasında şəhidlik zirvəsinə ucalanlar olmuşdur. Allah şəhidlərimizə rəhmət etsin!

Veteranlarımız, həmçinin gənclər arasında milli vətənpərvərlik ruhunun gücləndirilməsi sahəsində maarifləndirici təbliğat apararaq səfərbərliyin mütəşəkkil keçirilməsi üçün profilaktik tədbirlərdə fəal iştirak etmiş, 44 gün ərzində mütəmadi olaraq hərbi hissələrdə əsgərlərimizin mənəvi-psixoloji durumunun və milli vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə görüşlər keçirmiş, əsgərlərə sovqatlar aparmış, təqaüdlərinin müəyyən hissəsini Silahlı Qüvvələrin yardım fonduna ödəmişlər. Biz bilirik ki, bu gün Silahlı Qüvvələrimiz dövlət tərəfindən tam komplektləşdirilib və onların təminatı yüksək səviyyədədir. Lakin polis veteranlarının orduya hər hansı dəstəyini biz veteranlar xalq-ordu birliyinin təcəssümü kimi qiymətləndiririk.

Polis veteranları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun həyata keçirdiyi hərbi-siyasi, sosial-iqtisadi proqramları dəstəkləyərək bundan sonra da muxtar respublikamızda əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında polis orqanlarına yaxından köməklik göstərəcək, zərurət yaranarsa, Vətənin müdafiəsinə qalxaraq düşmənə qarşı aparılan döyüş əməliyyatlarında fəal iştirak edəcəklər.

***Yusif HƏSƏNOV***
***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Veteranlar Şurasının sədri***
***istefada olan polis polkovniki***

# Hər gün yazılan tarix



*Naxçıvan – Nuhçıxandır,*
*Qədimdir, uludur!*
*Naxçıvan – Günəşin doğduğu danıdır,*
*Atabəylərin yoludur.*
*Naxçıvan – Tarixdə neçə min addır-sandır,*
*Böyük insanlarla doludur.*
*Naxçıvan – Azərbaycanın Çənlibelidir,*
*Dədə Qorqudun elidir.*
*Müstəqil dövlətçiliyin*
*Əbədiyyət heykəlidir.*
*Naxçıvan – "Dağlarını bulud qucan,*
*Tarlaları ətir saçan,*
*Sinəsindən Arpa çayı,*
*Ətəyindən Araz keçən" – ecazkar bir məkandır.*

*Naxçıvan – Nəqşi-cahandır,*
*Hər gün yazılır.*
*Yazılan əbədi qalır.*
*Naxçıvan – Azərbaycandır,*
*Torpaqdan od alır.*
*Qurulur, tikilir, ucalır.*
*Ucalan ad alır.*
*Zamanı Zamana daşıyır,*
*Adlar yaşayır.*
*Ucala-ucala gedir Naxçıvan,*
*Yüksəlməkdə davam edir Naxçıvan.*

İsa HƏBİBBƏYLİ
akademik
















ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 945